**Bir neçə kərə yağının tərkibində uyğunsuzluğun aşkarlanmasına dair məlumat**

**(19 mart 2025)**

Nəzarət tədbirləri çərçivəsində "Allbuy" MMC və "Şamaxı Dairy Farm" MMC tərəfindən istehsal olunan kərə yağı məhsullarından nümunələr götürülüb. Nümunələrin sınaq nəticələrinə əsasən, kərə yağı adı ilə satılan məhsul partiyalarında bitki sterinləri − "Kampesterin" və "Beta-sitosterin" (bitki yağı) ilə yanaşı, yağ turşuları üzrə də uyğunsuzluq (Palmitin, Olein yağ turşuları) aşkarlanıb.

Agentlik tərəfindən sözügedən məhsul partiyalarının dövriyyədən çıxarılması və ticarət şəbəkələrindən geri çağırılması barədə məhdudlaşdırıcı qərar qəbul edilib. Həmçinin sahibkarlar barəsində inzibati tədbir görülüb, aşkar edilən nöqsanların aradan qaldırılması ilə bağlı icrası məcburi göstərişlər verilib.

Uyğunsuzluq aşkarlanan məhsul partiyaları aşağıdakılardır:

| **№** | **Məhsulun adı** | **İstehsal və son istifadə tarixləri** | **İstehsalçı** |
|---|---|---|---|
| 1. | "Rossiyskoe" əmtəə nişanlı 82,5% yağlılıqda təbii kərə yağı | 23.12.2024-23.12.2025 | "Allbuy" MMC |
| 2. | "Belaruskoe" əmtəə nişanlı 82,5% yağlılıqda təbii kərə yağı | 17.01.2025-17.01.2026 | "Allbuy" MMC |
| 3. | "Milk World" əmtəə nişanlı 82,5% yağlılıqda təbii kərə yağı | 05.12.2024-05.12.2025 | "Allbuy" MMC |
| 4. | "Golden Farm" əmtəə nişanlı 82,5% yağlılıqda kərə yağı | 02.12.2024-02.06.2025 | "Şamaxı Dairy Farm" MMC |
| | | 16.12.2024-16.06.2025 | "Şamaxı Dairy Farm" MMC |